*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1*
*Səhifə: 198-203*
*https://doi.org/10.59849/2663-4406.2023.1.198*

*ISSN: 2663-4406*
*E-ISSN 2709-2699*

# "Molla Nəsrəddin"in Poçt qutusu" və Naxçıvan

**Günel Əsgərova**
AMEA Naxçıvan Bölməsi. Azərbaycan.
E-mail: gunalasgar1987@gmail.com

**Annotasiya.** Məqalədə Azərbaycan mətbuatı tarixində ədəbi məktəb yaradan və şərəfli tarixi yol keçən "Molla Nəsrəddin" jurnalında dərc olunan Naxçıvana həsr edilmiş yazılara nəzər yetirilmişdir. 1906-1931-ci illərin "Molla Nəsrəddin" jurnalında Naxçıvanla bağlı "Qafqaz xəbərləri", "Sual və cavablar", "Teleqraf xəbərləri", "Yumorlu şeirlər", "Satirik hekayələr", "Felyeton", "Hikmətli sözlər", "Elan", "Karikatura və illüstrasiyalar" və s. özünəməxsusluğu ilə seçilirdi. Sosial ədalətsizlik, insan hüquqlarının tapdalanması, dövlət məmurlarının özbaşınalığı, dini fanatizm və nadanlıq, erməni-müsəlman qarşıdurması kimi mövzular "Poçt qutusu"nun əsas leytmotivini təşkil edirdi. "Molla Nəsrəddin"nin "Poçt qutusu"nda Naxçıvanın ictimai-siyasi, mədəni və sosial-iqtisadi həyatı ilə bağlı problemlərə də geniş yer verilmişdir.
**Açar sözlər:** Naxçıvan, Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı, "Poçt qutusu", mollanəsrəddinçilər, ədəbi məktəb, mətbuat

**Məqalə tarixçəsi:** göndərilib – 15.02.2023; qəbul edilib – 28.02.2023

# "Post box of Molla Nasraddin" and Nakhchivan

**Gunel Askerova**
Nakhcivan Branch of ANAS. Azerbaijan.
E-mail: gunalasgar1987@gmail.com

**Abstract.** The article looks at the articles dedicated to Nakhchivan published in the magazine "Molla Nasreddin", which created a literary school in the history of the Azerbaijani press and passed a glorious historical path. In the magazine "Molla Nasreddin" of 1906-1931, "Caucasian news", "Questions and answers", "Telegraph news", "Humorous poems", "Satirical stories", "Feuilleton", "Words of wisdom", "Advertisement" about Nakhchivan ","Cartoons and Illustrations" and etc. was distinguished by its originality. Topics such as social injustice, human rights violations, arbitrariness of government officials, religious fanaticism and ignorance, the Armenian-Muslim conflict were formed the main leitmotifs of the "Post box". The "Post box" of "Molla Nasreddin" also widely covers the problems related to the socio-political, cultural and socio-economic life of Nakhchivan.
**Keywords:** Nakhchivan, Jalil Mammadguluzadeh, "Molla Nasraddin" magazine, "Post box" mollanasraddins, literary school, press

**Article history:** received – 15.02.2023; accepted – 28.02.2023


www.journal.literature.az



## Giriş / *Introduction*

"Molla Nəsrəddin" jurnalı Azərbaycan mətbuatı tarixində şərəfli və mübariz yol qət edən, özünəxas ədəbi məktəb yaratmış, ən uzunömürlü milli mətbuat orqanlarımızdan biridir. Nəşrə başladığı gündən xalqın səsi olan "Molla Nəsrəddin" ictimai-siyasi həyatda baş verən hadisələrə öz tənqidi münasibətini bildirmişdir. "Molla Nəsrəddin" hədəfində rus çarizmi, İran və Türkiyə despotları, Amerika və İngiltərənin müstəmləkəçilik siyasəti, ana dili, dini fanatizm, qadın hüquqsuzluğu kimi ciddi məsələlərlə mübarizə dayanırdı. Mövcud cəmiyyətdə baş verən hadisələrə öz tənqidi münasibətini satirik-yumoristik tərzdə bildirən "Molla Nəsrəddin" müxtəlif janrlardan istifadə edirdi. Jurnal səhifələrində özünə yer alan əyləncəli, lakonik, satirik şeirlər, xəbərlər, felyetonlar, atalar sözləri, karikaturalar və s. oxucuların marağına səbəb olmuş və qısa zaman kəsiyində sevilməsində də mühüm rol oynamışdı.

Mollanəsrəddinçilər Azərbaycanda, bütövlükdə Şərq aləmində cərəyan edən hadisələri göstərmək üçün jurnalda "Qafqaz xəbərləri", "İçəri xəbərlər", "Ticari və ekoloji xəbərlər", "Sual-Cavab", "Atalar sözləri", "Felyeton", "Yumorlu teleqramlar", "Satirik hekayələr", "Satirik elanlar" və s. rubrikalardan istifadə edirdilər ki, bunların içərisində "Poçt qutusu" rubrikasının da özünəməxsus yeri var idi.

## Əsas hissə / *Main Part*

Jurnalın səhifələrində özünə yer almış digər rubrikalar kimi "Poçt qutusu"nun əsas leytmotivini hakim dairələrdəki qanunsuzluqlar, dini fanatizm, söz və mətbuat azadlığının olmaması, ruslaşdırma siyasətilə mübarizə, ana dili məsələsi, sosial ədalətsizliklər, insan hüquqlarının müdafiəsi və s. mövzular təşkil edirdi.

"Poçt qutusu"nu digər janrlardan fərqləndirən əsas səciyyəvi xüsusiyyəti onun çox yığcam, lakonik məsləhət, xəbərdarlıq və nəsihətverici tərzdə olması idi. Bu janrın üstünlüyündən məharətlə istifadə edən C.Məmmədquluzadə "Poçt qutusu" vasitəsilə jurnalın daimi yazar və müxbirlərinə redaksiyaya göndərilən yazıların daha dolğun, məzmunlu, yığcam və oxuculara təsir edəcək tərzdə yazmaları haqqında müntəzəm olaraq dəyərli məsləhət və tövsiyələr verirdi. Bu barədə jurnal 1906-cı il 31 nömrəli sayında "Poçt qutusu"nda yazırdı: "İdarəmizə gələn kağızların çoxunu çap etmirik. Etməməyimizin səbəbi budur ki, kağızların çoxundan bir məna çıxmır". Məsələn, "Naxçıvanda "Molla Dosta" yazdığınız mollanın qeytan almaq məsələsi əhəmiyyətli olmadığına görə çap olunmayacaq. Çalış mənalı və faydalı xəbərlər yazgilən ki, heç olmasa şəhərinizdə (skverdə) danışılan şirin-şirin söhbətlərdən və gözəl-gözəl qiybətlərdən xəbərdar olub bilək ki, şimdi oradakı bəylərin söhbətləri nə məqulədədir? Ta biz dəxi o gözəl mətləbləri qarelərimizə bildirib onları dəxi müstəfeyz edək" [3, 1914, №5, s.7]. "Naxçıvanda "Nəssac"a: Bu dəfəki şeirlərin dərci məsləhət olmadı, gələcəkdə sadə və mənalı yazsanız çap olunar" [3, 1913, №4, s.7]. "Ordubadda "Xoruz"a:-Yazanda bir mətləbdən yaz! Hər kəs nə iş görüb adını yaz. Ümumən haqqında yazıb kağız qaralamağı özümüz bacarırıq" [3, 1924, №24, s.11]. "Baş Noraşinda-kəndləri gəzənlərə: yazdığınız uzun məktubların içində nə qədər axtardıqsa əməlli bir şey tapa bilmədik" [3, 1929, №21, s.7]. "Naxçıvanda Əziz"ə: Məsul işçilərin bir-birinin ayağından çəkmələri barədə yazdığınız səhihdir. Ancaq qələmi əlinə alanda elə bir əhvalat yaz ki, qeyri yerlərdə və Bakıda qəribə görünsün" [3, 1929, №26, s.7]. Göründüyü kimi, bu cavablarda yazıçı məqalə müəlliflərinə məsləhət verir və eyni tələbkarlıqla jurnalın məqsəd və məramına uyğun mənalı, əhəmiyyətli yazılar yazmağı tələb edirdi.

"Poçt qutusu" yazılarından aydın olur ki, "Cəlil Məmmədquluzadə təkcə adı-imzası hələ tamam-kamal bəlli olmayan gənc qələm sahiblərinə deyil, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.R.Şamçızadə, Ə.Qəmküsar və başqa qüdrətli satirik şairlərə də çəkinmədən eyni tələbkar münasibətini ifadə edirdi" [1, s.263]. Məsələn, jurnalın 1909-cu il 46 saylı "Elan"ında yazır: "Culfada Qəmküsar" cənablarına: Yazdığınız şeirlər çox gözəl, lakin heyif ki, mollanəsrəddinsayağı yazmayıbsınız-çox ciddidir. Ümidvarıq ki, bundan sonra şeirlərinizi mollanəsrəddinsayağı yazarsınız. Özgə şeirlərini-

zi gözlüyürük" [3, 1909, № 46, s.8]. Redaksiyaya gələn məktublar jurnalın tələblərini ödəmədikdə "Poçt qutusu"nda dərhal cavablandırılır və müəllifdən zamanın və "Molla Nəsrəddin"in tələblərinə uyğun əhəmiyyətli yazılar göndərməyi xahiş edirdi: "Naxçıvanda "Gahdanbir"ə-məqalənizi çap eləmək mümkün olmadı. Xahiş edirsiniz bir özgə mətləb yazınız [3, 1923, №10, s.7]. "Naxçıvanda Hüd-hüdə: Teatro barəsində yazdığınız əhəmiyyəti az olduğundan çapa verilmədi" [3, 1929, № 32, s.7]. "Əylis kəndində Tövfiqə-dörd vərəqdən ibarət məktubunuz səbətdə tövqif olunmuşdur. Heyf ki, rəhmətlikdən bir kəlmə də olsun anlamaq olmadı" [3, 1925, №16, s.11]. "Ordubadda "mismar və açara"-imzanız açarsa da özünüz bir şey aça bilməmişsiniz" [3, 1929, №26, s.7]. Cəlil Məmmədquluzadə yazarlarından həqiqəti, doğrunu, cəmiyyətdə gördükləri ədalətsizlikləri yazmağı, ən əsası isə mollanəsrəddinsayağı yazmağı, yəni satira və yumorla, eyham və kinayə, istehza və məzhəkə ilə yazmağı tələb edirdi.

"Poçt qutusu" jurnalın daimi müxbir və yazarları arasında bir növ məktub əlaqəsi rolunu oynayırdı. İdarəyə daxil olan yazılar konkret ünvana uyğun olaraq dərhal dərc edilirdi. Bəzən isə yazının növbəti nömrədə dərc ediləcəyi xəbəri verilir, yaxud da hansısa səbəbdən dərc edilməyəcəyi həmin müxbirə "Poçt qutusu"nda bildirilirdi. Bu səbəbdən də "Poçt qutusu" jurnalın nəşrində çox yararlı və faydalı rubrikalardan biri kimi mühüm rol oynayırdı. Məsələn, "Ordubadda Məşədi Mozalan bəyə: məktubunuz 17-ci nömrədə çap olunacaq: [3, 1909, №16, s.8]. Naxçıvanda "Bic"ə:-Qoşadizədən yazdığınız məktub getmədi [3, 1929, №26, s.7]. Naxçıvanda "Günahkar"a: şeirlər çap olunmayacaq [3, 1909, №41, s.8]. "Naxçıvan. Qarabağlarda "Çoxbilmiş"ə: Elanınız çap olunmayacaq" [3, 1910, №26, s.7] və s.

Söz və mətbuat azadlığının olmadığı bir dövrdə "Molla Nəsrəddin"də cəsarətli yazılar, karikaturalar dərc olunurdu. Bildiyimiz kimi, jurnal dərc edilən qərəzsiz məqalə və karikaturalara görə dəfələrlə çar senzurasının təqiblərinə məruz qalaraq nəşri dayandırılmışdır. Ehtiyatı əldən verməyən jurnalın redaktoru Cəlil Məmmədquluzadə mollanəsrəddinsayağı yazılmayan məqalələri kənara qoyur və "Poçt qutusu"nda bunu bariz bir şəkildə bildirirdi: "Culfada "O taylı" imzası ilə yazana: Elə şeyləri indiki vaxtda yaza bilmərik" [3, 1909, №13, s.7]. "Naxçıvanda konfrans nümayəndələrinə-bir qadının qızıl ziynəti barədə olan yazınızı çap etmək məsləhət olmadı" [3, 1929, №23, s.7]. "Naxçıvanda "dəmir yol fəhləsi və ibadətçiyə"-Mustafa Həsən oğlunun nadincliyindən və dız Ələsgərin bizdən küsməyindən qorxaraq o barədə bir şey yaza bilmədik" [3, 1929, №26, s. 7]. Deməli, jurnalın tələb və ruhuna uyğun olmayan yazıların dərci mümkün deyildi.

Jurnalın əsas qayda və prinsiplərindən biri də yazıların məhz gizli imzalarla dərc edilməsi idi. Çünki açıq imza ilə çıxış etməyin bir sıra təhlükəli tərəfləri olduğundan *(şəxsi qərəzlik, müəlliflərin məxfiliyi, onların təhlükəsizliyi, senzuradan qorunmaq və s.- G.Ə.)* müəlliflər özünümüdaifiə məqsədilə dövrün ciddi, ictimai xarakterli yazılarında müxtəlif gizli imzalara müraciət etməli olurdular. Jurnal öz müxbirlərinə 1909-cu il 15 nömrəli "Poçt qutusu"nda bildirir ki, "məktbunuzun çap olunmağı üçün məcmuəmizə müştəri olmağınız kifayətdir" [3, 1909, №15, s. 8]. Lakin bu o demək deyildir ki, məcmuəyə müştəri olmaqla redaksiyaya göndərilən bütün yazılar jurnalda özünə yer ala bilirdi. "Poçt qutusu" yazılarına nəzər saldıqda görürük ki, redaksiyaya gizli imza ilə daxil olan məktubların heç də hər biri jurnalda çap olunmurdu. Məsələn, Culfadan "M.B." imzası ilə məqalə göndərənə: Bir səhifə kağızda on yeddi adama toxunursunuz, amma adınızı da bizdən gizləyirsiniz. İndi bir fikir eləyin görək bizim təklifimiz nədi? [3, 1908, №1, s.7]. "Naxçıvanda "Qorxağ"a: Tanımadığımız şəxsdən gələn kağızları çap etmirik" [3, 1924, №4, s.7]. "Ordubadda "Qızdırmalı"ya: Əvvəla budur qızdırma! İkinci də məktubun imzasızdır. İmza yazdığın məqalənin altında olmalıdır [3, 1924, №23, s.11]. Naxçıvanda "Ədibə": Familiyanızı yazmış olsaydınız bilərdik ki, sənin özün də bu dərdə mübtəlasan [3, 1924, №27, s.11].

"Molla Nəsrəddin" jurnalının tənqid hədəfində mövhumat və dini fanatizmə qarşı mübarizə də dayanırdı. Bu mübarizənin hədəfində olanlar isə satirik bir dillə ittiham olunurdular. Əlbəttə ki, mollanəsrəddinçilər bilirdilər ki, əsrlərdir davam edən dini fanatizm bəlasına son qoymaq, qısa müddət ərzində onun öhdəsindən gəlmək asan məsələ deyil. Jurnal bütün rubrikalarında olduğu kimi, "Poçt qutusu"nda da bu məsələyə geniş yer vermiş, öz tənqidi iradlarını yığcam şəkildə qərəzsiz və obyektiv bir şəkildə bildirmişdir: "Ordubadda "Dəli"yə:-Yazırsan ki, şəhərimizdəki, üç yüz





məscid camaatimizin ehtiyacına kifayət vermir, gərək çalışıb molla hazırlayasınız. Məscid kifayət etməsə, evlərdən də məscid vermək olar [3, 1924, №9, s.7]. "Ordubad müxbirin"ə:-Yazırsan ki, mədrəsəni zəhmət sarayı etdiklərinə görə mollaları tökürlər eşiyə. İldə bir dəfə zir-zibili eşiyə tökməyin eybi yoxdur [3, 1924, №15, s.7]. Mollanəsrəddinçilər xalqın düşmənləri adlandırdıqları fırıldaqçı din xadimlərinin iç üzünü açıb xalqa göstərir, hər fürsətdə avam millətin dərin yuxudan oyanması, öz hüquqlarını əldə etməsi, azadlığa qovuşması üçün mübarizəyə səsləyirdi.

Öz lakonik yazıları ilə seçilən "Poçt qutusu"nda mənsəbpərəst "ruhanilər", mərsiyəxanlar, falabaxanlar və mollalar tərəfindən avam xalqın aldadılaraq halal qazancının hiyləgərcəsinə mənimsənilməsi məsələlərinə də toxunulur və bu mənfi hallar acı gülüşlə ifşa edilirdi: "Naxçıvan. Tasquran Molla ağa möcüz göstərir. Arvadlar bir ucdan hey qızıldı ki, daşıyırlar molla ağaya. Molla cinləri elə çığırdır ki, az qalır səsi Qazıqumux müsəlmanlarını şirin yuxudan oyatsın [3, 1908, №2, s.6]. "Şahtaxtıda "Nuri"yə: Yazırsan ki, axır vaxtlarda xoruz döyüşdürmək çox mod olubdur. Hər kəsin xoruzu qaçanda oğlu ölmüş atalar kimi zülüm-zülüm ağlayır və hər nəyə gümanı gəlirsə satıb gedir kəndlərdən döyüşgil xoruz alamağa və şahid gətirirsən ki, məscidimizin ədəmeyi-rəisi Məşədi Əhməd Uluxanlıdan min zəhmət ilə gətirdiyi xoruzunun Seyid İbrahim oğlunun xoruzundan qaçdığına görə tab gətirə bilməyib gümanı gələn bir inəyi satıb yaxşı döyüşgən xoruz almaq üçün səfərə çıxdı. Bunu bilmiş olasan ki, müsəlman qardaşlar bu cür işlərdə çox qeyrətlidirlər. Çox vədə olar ki, məsciddə pul yığılanda da bəhs-bəhsə düşüb var-yoxlarını tökərlər boynuyoğun mərsiyəxanların ətəyinə. Böylə işlərdə onlara irad eləmək nahaq və bicadır" [3, 1914, №9, s.7].

Jurnalın təsir dairəsi çoxcəhətli və geniş idi. Cəmiyyətdəki nöqsanları cəsarətlə ifşa edən mollanəsrəddinçilərin ən aktual mövzularından, əsas tənqid hədəflərindən biri də qadın azadlığı məsələsi idi. Bütün rubrikalarında olduğu kimi, "Molla Nəsrəddin"in "Poçt qutusu"nda da bu məsələ işıqlandırılmış, qadınların hüququnun əlindən alınması, onlarla kölə kimi davranılması kinayə və istehza ilə tənqid olunmuşdur: "Ordubadda "Mozalan"a: Yazırsan ki, zavod komsomol özəyinin üzvü Babayev söz veribdir ki, bundan sonra arvadını çəkməsinin altına salıb döyməsin. Ancaq məlum olmur ki, ayə sən deyirsən Babayev arvadını heç döyməsin, ya döyəndə çəkməsinin altına salmasın, özgə cür döysün?" [3, 1930, №3, s.7]. "Naxçıvanda "Şitil" imzası ilə yazana: Yazırsan ki, dünən bazarda bir müsəlman bir nəfər rus xanımını hər gecə evindən savayı getdiyi yerdə olan məhbubəsinə oxşadıb ürəyi getdi. Bu bir elə iş deyil, sən Ordubad şəhərində axşam çağları "Körpü başı"na bax" [3, 1910, №30, s.7]. Bu satirik yazılardan aydın olur ki, qadınlar haqq və hüquqlarını müdafiə edə bilmir, nadan, cəhalətpərəst kişilər tərəfindən döyülür, təhqir olunur və istismara məruz qalırlar.

"Molla Nəsrəddin"də Naxçıvanla bağlı yazılara diqqət yetirdikdə, adətən, Culfa və Ordubada aid, xüsusən də Culfa gömrükxanasının tənqidinə dair yazıların qabarıq şəkildə yer aldığı aydın görünür. Culfa gömrükxanasındakı qanunsuzluqlar, özgə millətin nümayəndələrinin yerli idarələrdəki özbaşınalığı, yerli tacirlərlə əcnəbi dövlət məmurlarının iş birliyi, bank rəislərinin, idarə məmurlarının özbaşınalığı kimi mənfi hallar jurnalın felyetonlarında, karikaturalarında, eləcə də "Poçt qutusu"nda öz əksini tapmışdır: "Culfada "Məxsusi müxbir"ə: Gömrükxana barəsində yazdığınızdan, doğrusu, başa düşə bilmədik ki, rəisin tərəqqisi nədir. Əgər mümkündürsə, sözü açıq yazın. Sizə inanırıq və çap elərik" [3, 1909, №24, s.7]. "Naxçıvanda "Bic" ağaya": Bicliyin tutub demə ki, camaat niyə bangın rəisinin qulluğunda udquna-udquna danışırlar. Və o deyəndə ki, burnunuzu silməyin silməyirlər ki, kreditimiz bağlanar. Əvvəla onların ayağı biləni sənin, mənim başımız bilməz, ikincisi də budur ki, həmişə ehtiyat şərtdəndir və sözə baxmaq ədəbdən" [3, 1913, №4, s.7]. Bu poçt yazılarından bəlli olduğu kimi, mollanəsrəddinçilər mövcud cəmiyyətdə hökm sürən sosial ədalətsizlikləri açıb göstərmiş, çarəsiz xalqın, millətin eşidilən səsi olmuşdur. "Culfa-Ordubad poçtası" yazısında da idarə məmurlarının dövlətin pulunu hiyləgərcəsinə mənimsəməsi ezop dili ilə tənqid edilir və satirik tərzdə oxucunun nəzərinə çatdırılır: "Ordubad ilə Culfa arasında poçta nəqliyyatı üçün 40 at saxlanırdı. İndi isə yeni üsulda çıxan poçta mərasilatında poçta idarəsi ancaq altı eşşəyə kifayət edir. Zənn olunur ki, bu üsul əlverişli olduğundan bir çox yerlərdə qəbul olunsun" [3, 1923, №20, s.4]. "Ordubadda "Xəbərçi"yə: Bazar çörəyi həmişə gərək şor və

acı olsun, çünki camaat kasıbdır, girvənkəsi üç abbasıya istiot (fil-fil) alıb bişmişə tökə bilməzlər" [3, 1910, №40, s.7]. "Molla Nəsrəddin" üzünü hüququ tapdalanan xalqa tutub deyirdi: "Hüquq verilmir, hüquq zorla, mübarizə yolu ilə əldə edilir. Nə göz yaşı tökməklə azarlı şəfa tapar, nə dua oxumaqla. Bəs nə etməli? Lazımdır ki, mikrobları millətin bədənindən kənar etmək. Hansı yolla? Döyənəklə!" [4].

Jurnal məqalələrinin əsas məğzini satira təşkil etsə də, maarifləndirici tərəfi ilə də mədəniyyətimizi, tariximizi təbliğ edirdi. Belə ki, "Molla Nəsrəddin"də tez-tez Naxçıvanın qədim yaşayış məskənlərinin adları çəkilir və həmin yerlərdən müxtəlif məzmunlu xəbərlər paylaşılırdı. "Molla Nəsrəddin"də Naxçıvan və onun qədim kənd və şəhərləri olan Culfa, Ordubad, Şahtaxtı, Qarabağlar, Siyaqut, Qarxun, Əylis, Yengicə, Vənənd, Bilov, Nünnüs, Dizə və s. yaşayış məskənlərinin adları çəkilməklə bərabər, həm də tarixi pir və məscid adlarına da rast gəlmək mümkündür. Məsələn, "Yəhya bəy" məscidi, "Zaviyə" məscidi, "Came" məscidi, "Girdətan" məscidi, "Nəxl" piri, "Düylün" piri, "Buğkar" piri, "Malik İbrahim" piri və s. Jurnal müqəddəs yerləri gəlir, qazanc yerinə çevirən mollaları "Poçt qutusu"nda yumorla ifşa edirdi: "Şuşada "Bir dərdli" imzası ilə kağız göndərənə: Kağızınızın çap olunmağından dərdinizə bir çarə hasil ola bilməz. Məsləhət budur ki, ya Ordubadda "Nəxl" pirinə, ya Keşlə kəndində Fatma xalanın pirinə nəzir deyəsiniz" [3, 1909, №20, s.7]. Müsəlman aləmini öz cənginə almış tərəqqiyə maneə olan köhnəlik qalıqları, cəhalət, erməni-müsəlman münasibətlərindəki qarşıdurma və s. mənfi halları "Molla Nəsrəddin" satirik şəkildə oxucusuna göstərirdi: "Culfada möminə: erməni kürəxanasından alınan saxsı qablar gərək otuz gün və otuz gecə qala suyun içində, sonra bir bu qədər vaxt gərək qala günün qabağında. Ondan sonra işlətmək olar" [3, 1907, №4, s.7].

"Molla Nəsrəddin"in "Poçt qutusu" rubrikasının təsir dairəsi çox güclü idi. "Molla Nəsrəddin" jurnalı yaradıcılıq təcrübəsi keçməkdə şərqqapısıçılar üçün həm də bir məktəb idi. Qəzetdə çap olunan "Balaca felyeton"larında "Molla Nəsrəddin"in təsiri açıq-aşkar hiss olunur. Araşdırmalardan aydın olmuşdur ki, bu rubrikanın ənənələrindən 1921-ci ildən Naxçıvanda nəşrə başlayan "Şərq qapısı" qəzeti də faydalanmışdır [2, s.59].

## Nəticə / *Conclusion*

Nəticə olaraq deyə bilərik ki, jurnalda geniş yer tutan Naxçıvanla bağlı "Poçt qutusu" yazıları yığcam, lakonik məsləhət, nəsihətverici tərzi və rəngarəng mövzu genişliyinə görə digər rubrikalardan fərqlənmiş, həmçinin jurnalın redaktoru, müxbirləri və oxucuları arasında rabitə funksiyası vəzifəsini yerinə yetirərək faydalı və əhəmiyyətli olması ilə seçilmişdir. Redaktor cəmiyyətdə baş verən mövcud hadisələrin həllini digər rubrikalarla bərabər "Poçt qutusu" vasitəsilə də idarə etmiş və buna müvəffəq ola bilmişdir.

## Ədəbiyyat / *References*

1. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Naxçıvan: Əcəmi, 2009
2. Xəlilov, F. "Şərq qapısı" qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu. – Naxçıvan: Əcəmi, 2022.
3. "Molla Nəsrəddin" jurnalı.
4. https://www.google.com/amp/s/www.azadliq.org/amp/28230447.html





## "Почтовый ящик" "Моллы Насреддина" и Нахчыван

**Гюнель Аскерова**
Нахчыванский филиал НАНА. Азербайджан.
E-mail: gunalasgar1987@gmail.com

**Резюме.** В статье к исследованию привлечены посвящённые Нахчывану публикации, опубликованные в журнале "Молла Насреддин" – родоначальнике литературной школы в истории азербайджанской печати, прошедшем славный исторический путь. В период с 1906 по 1931 годы в журнале "Молла Насреддин" отличались своей самобытностью относящиеся к Нахчывану рубрики "Кавказские вести", "Вопросы и ответы", "Телеграфные вести", "Юмористические стихи", "Сатирические рассказы", "Фельетон", "Афоризмы", "Объявление", "Карикатура и иллюстрации". Лейтмотивом "Почтового ящика" были социальная несправедливость, попрание прав человека, самоуправство государственных чиновников, религиозный фанатизм и невежество, армяно-мусульманское противостояние. В "Почтовом ящике" "Моллы Насреддина" широкое место было отведено общественно-политическим, культурным и социально-экономическим проблемам, связанным с жизнью Нахчывана.

**Ключевые слова:** Нахчыван, Джалил Мамедгулузаде, журнал "Молла Насреддин", "Почтовый ящик", молланасреддинцы, литературная школа, пресса